Elmi Xəbərlər Jurnalı Nömrə 3, 2024 157-160
DOI:10.30546/gdu.3.2024

**UOT:37.**

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ SİSTEMİNİN TƏHSİL KEYFİYYƏTİNİN ARTIRILMASINDA ROLU

***Verdiyeva Aygün Bakixan qızı***
***Xəzər Universitetinin doktorantı***

**Xülasə:** *Bu məqalədə ali təhsil müəssisələrində monitorinq və qiymətləndirmə sistemlərinin təhsil keyfiyyətinin artırılmasındakı rolu araşdırılıb. Təhsil müəssisələrinin inkişafında və tədrisin keyfiyyətinin yüksəldilməsində monitorinq və qiymətləndirmə proseslərinin əhəmiyyəti vurğulanır. Məqalədə effektiv qiymətləndirmə sistemlərinin qurulmasının tələbələrin bilik və bacarıqlarının obyektiv şəkildə ölçülməsi, tədris prosesində mövcud olan boşluqların aşkarlanması və onların aradan qaldırılması ilə nəticələnəcəyi qeyd olunur. Həmçinin, müasir təhsil standartlarına cavab verən monitorinq yanaşmalarının tətbiqi və bu sistemlərin davamlı təkmilləşdirilməsi təhsil keyfiyyətinin davamlı yüksəlməsinə şərait yaradır. Məqalə ali təhsil müəssisələrində bu sistemlərin istifadəsinin tədrisin səmərəliliyini artırdığına dair təcrübələrə və nümunələrə əsaslanır.*

**Açar sözlər:** Monitorinq, qiymətləndirmə sistemi, təhsil keyfiyyəti, ali təhsil müəssisələri, tədris səmərəliliyi, təhsil standartları, təkmilləşdirmə.

**Ключевые слова:** Мониторинг, система оценки, качество образования, высшие учебные заведения, эффективность образования, образовательные стандарты, совершенст вование.

**Keywords:** Monitoring, assessment system, educational quality, higher education institutions, educational efficiency, educational standards, improvement.

Cəmiyyətimizdə gedən sosial-iqtisadi dəyişikliklər, sürətli elmi-texniki tərəqqi ali təhsildə mütəxəssis hazırlığının keyfiyyətinin yüksəldilməsinə xüsusi tələblər verir. Bu məsələ hazırda təhsilimizin dünya təhsilinə inteqrasiyası və beynəlxalq rəqabət şəraitində böyük aktuallıq kəsb edir. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda [1] təhsilin keyfiyyətinin yüksəldilməsi ölkəmizin təhsil sisteminin strateji vəzifəsi kimi qeyd edilmişdir. Strategiyada nəzərdə tutulan bütün prioritet istiqamətlər və hədəflər məhz təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş və bu sahədə müəllim hazırlığı, onun peşəkarlıq və nüfuzunun artırılması mühüm şərt kimi müəyyən edilmişdir. Təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə təhsili idarəetmə sisteminin təkrar qurulması, həmin sahədə insan resurslarının inkişafı və müəllim peşəsinin nüfuz etməsinin artırılması lazımdır. Hazırda cəmiyyətin inkişafının bütün sahələrində, həmçinin təhsil sistemində lazımi informasiyaları toplamaq və onlardan istifadə etməklə həmin sahədə vəziyyəti daha yaxşı öyrənmək və idarə etmək hər bir mütəxəssis üçün, eləcə də müəllim üçün böyük əhəmiyyətə malikdir [4, s.247].

Müasir mütəxəssis fəaliyyətin istənilən sahəsində məlumat bazası yaratmaq, lahiyələşdirmək və ondan istifadə etmək bacarığına malik olmalıdır. Bu bir çox gündəlik adi məsələləri həll etmək prosesini sürətləndirməyə və avtomatlaşdırmağa kömək göstərə bilər.

Monitorinq ideyası məhz bu ehtiyacdan yaranmış, informasiya cəmiyyətinin formalaşması və inkişafına kömək edir. Monitorinq müxtəlif sahələrdə tətbiq olunur: sosial problemlərin həllində [sosial monitorinq), ətraf mühitdə baş verən proseslərin öyrənilməsi və tənzimlənməsində (ekoloji monitorinq), təbabətdə müəyyən xəstəliklərin öyrənilməsi və müalicəsində (tibbi monitorinq), müxtəlif psixoloji məsələlərin həllində (psixoloji monitorinq) və başqa istiqamətlərdə geniş istifadə edilir. Keçən əsrin ikinci yarısından

DOI:10.30546/gdu.3.2024

başlayaraq pedaqoji sahədə, o cümlədən təhsil sistemində də monitorinqin tətbiqinə — təhsilin keyfiyyətinin yüksəldilməsinin elmi əsaslarının, optimal qiymətləndirmə sisteminin axtarışlarına başlanmışdır.

Hazırda təhsilin keyfiyyətinin qiymətləndirilməsi monitorinqi (PİSA) 70-dən çox ölkəni əhatə edən nüfuzlu beynəlxalq bir sistemə çevrilmişdir. Beynəlxalq monitorinq ayrı-ayrı ölkələrin təhsil sisteminin vəziyyətini aşkara çıxarmağa, təhsil sahəsində strateji qərarların səmərəliliyini qiymətləndirməyə kömək göstərir. Bu beynəlxalq yarışmada təhsilalanların müxtəlif fənlər üzrə aldıqları bilik və bacarıqları real həyati problemlərin həllində kompleks tətbiq etmək və informasiyalardan müstəqil istifadə etmək sahəsində səriştələri yoxlanıb qiymətləndirilir və nəticələr beynəlxalq miqyaslı jurnalda dərc olunur. Bu isə müxtəlif ölkələrdə təhsilin vəziyyətini müqayisə etməyə, rəqabəti gücləndirməyə və təhsilin keyfiyyətini stimullaşdırmağa imkan verir.

Təhsilin keyfiyyət monitorinqi müxtəlif səviyyələrdə – beynəlxalq, milli, regional və yerli (təhsil müəssisələri daxil olmaqla) təhsilin mühüm istiqamətləri üzrə ən zəruri məlumatların sistemli və müntəzəm şəkildə toplanması, işlənməsi və istifadə olunması mexanizmi kimi çıxış edir. “Monitorinq” latın mənşəli “monere” sözündən olub “xəbərdar etmək”; “ehtiyat tədbirlər” mənasını verir. Təhsil sisteminin monitorinqi təhsilin keyfiyyətinə müntəzəm nəzarəti təmin edən, onu yüksəltmək istiqamətində tədbirlər görülməsinə imkan verən təsirli vasitə rolunu oynayır. Monitorinqin mahiyyəti və struktur ünsürləri ilə bağlı pedaqoji ədəbiyyatda müxtəlif fərqli yanaşmalar mövcuddur: müxtəlif mənbələrdə monitorinq təhsilin idarə edilməsi vasitəsi kimi, obyektin sistemli müşahidə edilməsi və nəticələrin qeydə alınması prosesi kimi, təhsilin keyfiyyətinin diaqnostikası amili kimi [5; 6] və s. nəzərdən keçirilir. Monitorinq bəzən yoxlama və qiymətləndirmə ilə eyniləşdirilir, bəzən də diaqnostika, proqnozlaşdırma və korreksiya prosesləri məcmusu kimi səciyyələndirilir [2, s.10].

Monitorinqi təlim prosesinin ancaq bir və ya bir neçə ünsürü ilə məhdudlaşdırmaq olmaz: o, bütöv təlim prosesi və onun nəticələrinin təhlil edilib qiymətləndirilməsi, habelə mövcud nöqsanların oradan qaldırılması, işin proqnozlaşdırılması və idarə olunması proseslərini özündə birləşdirir. İdarəetmə nəzəriyyəsi baxımından monitorinq hər hansı prosesin, o cümlədən təlim prosesinin səmərəli idarə edilməsi mexanizmi kimi nəzərdən keçirilir. Təlim prosesinin idarə edilməsinin ayrı-ayrı funksiyaları (nəzarət, yoxlama, diaqnostika, qiymətləndirmə, korreksiya və b.) monitorinqin mühüm ünsürlərini təşkil edir və onun reallaşması üçün şərait yaradır. Başqa sözlə, monitorinq öz-özlüyündə yox, onun ünsürlərinin vəhdəti ilə reallaşır. İlk informasiyalar nəzarət, yoxlama və qiymətləndirmə yolu ilə əldə edilir: təhsilalanların bilik və bacarıqlarının səviyyəsi aşkara çıxarılır, diaqnostika vasitəsilə mövcud nöqsanlar, səhvlər və onları doğuran səbəblər araşdırılır. Beləliklə, qarşıya qoyulan məqsəddən, norma və standartlardan kənaraçıxmalar müəyyən edilir, biliklərin məqsədi və ona çatmaq vasitələrində dəyişikliklər aparmaq üçün müvafiq korreksiya işləri həyata keçirilir.

Təcrübə göstərir ki, ənənəvi təhsilin idarə edilməsindəki bir çox nöqsan və səhvlər korreksiya işlərinə birtərəfli, yanlış baxışla bağlıdır. Belə ki, bu zaman əsas diqqət, adətən, təhsilalanların bilik və bacarıqlarındakı səhvlərin aşkara çıxarılmasına yönəldilir, lakin təlimin məqsəd və məzmununda, vasitə və metodlarında, bütövlükdə təlim prosesinin özündə yol verilən nöqsan və çatışmazlıqlar üzə çıxarılmamış qalır. Başqa sözlə, yoxlama, bir qayda olaraq, təlim prosesinin nəticəsinə yönəlir, prosesin özü – onun təşkili, metod və texnologiyaları lazımi dərəcədə tənzimlənmir. Bu da, özlüyündə, təlim prosesinin nəticəsinə — bilik və bacarıqların mənimsənilməsi səviyyəsinə ciddi mənfi təsir göstərir. Monitorinq sistemində isə nəzarət, qiymətləndirmə və digər ünsürlər öz ənənəvi funksiyaları ilə yanaşı

DOI:10.30546/gdu.3.2024

yeni funksiya – bütövlükdə təlim prosesi və onun nəticələrinin keyfiyyətini idarə etmək funksiyasını yerinə yetirir.

Beləliklə, monitorinqdə ənənəvi təlim prosesinin bütün ünsürləri vahid istiqamətə – təlim prosesi və onun nəticələrinin keyfiyyətini idarə etmək funksiyasına yönəlir. Monitorinq idarəetmə prosesi kimi çıxış edir.

Pedaqoji prosesdə monitorinqin obyektləri müxtəlif miqyasda dəyişə bilər. Obyektə görə pedaqoji monitorinqin aşağıdakı növləri fərqləndirilir: didaktik (təhsil), tərbiyəvi, psixoloji-pedaqoji monitorinq və b.

Monitorinqdə qarşıya qoyulan məqsədlə fəaliyyətin faktik nəticələri tutuşdurulur, əksəlaqə sayəsində onların uyğunluq dərəcəsi aşkara çıxarılır. Çox vaxt bu sahədə baş verən uyğunsuzluq heç də həmişə praktik təhsil işçiləri tərəfindən nəzərə alınmır; lazımi korreksiya işi aparılmır. Monitorinqin vəzifələrindən biri məhz kənaraçıxmaların səviyyəsini, istiqamətini və səbəblərini aşkara çıxarıb düzgün qiymətləndirməkdən, bu yolla prosesi düzgün istiqamətləndirmək və idarə etməkdən ibarətdir. Bunun da əsas şərti monitorinqdə idarəetmənin bütün ünsürlərini, funksiyalarını vəhdət halında həyata keçirməklə bağlıdır. Monitorinqin başlıca funksiyaları sırasında informasiya, diaqnostika, müqayisə və proqnozlaşdırma funksiyalarını qeyd etmək olar [3, s.21].

- informasiya funksiyası təlim prosesi və onun nəticələri ilə bağlı müntəzəm olaraq informasiyaların toplabması, təhlili, işlənməsi yolu ilə təhsilin leyfiyyətinin idarə olunmasını təmin etməkdən ibarətdir. Monitorinq sistemində toplanan informasiyalardan təhsilin məzmunu, proqram və dərsliklərin təkmilləşdirilməsi, eləcə də təlimin vasitə və metodlarının yeniləşdirilməsi, müəllimin işçi proqramında (sillabusda) müvafiq dəyişikliklərin aparılması üçün istifadə edilə bilər. Monitorinqin məlumatları habelə kafedraların, müəllimlərin öz fəaliyyətlərini təkmilləşdirməkdə, təlim prosesi və onun nəticələri üçün məsuliyyətlərini artırmaqda faydalı ola bilər.

- diaqnostik funkisya – tədris proqramlarının yerinə yetirilməsini, tələbələrin ayrı-ayrı mövzular və bölmələr üzrə bilik və bacarılqarının səviyyəsini, oradakı kəsirləri, onların başvermə səbəblərini aşkara çıxarmağa yönəlir. Bu yolla toplanan məlumatlar tələbələrin mənimsəmə səviyyəsinin vəziyyətini, onların qarşılaşdığı çətinlikləri, təlim nəticələrindəki dəyişiklikləri öyrənməyə, bütövlükdə prosesi qiymətləndirməyə imkan verir;

- müqayisə funksiyası – monitorinq materiallarının müəyyən göstəricilər üzrə ayrı-ayrı bölgələrdə — şəhər və rayonlarda, habelə təhsil müəssisələrində fənlərin tədrisində, müəllimlərin və digər təhsil işçilərinin fəaliyyətində əldə olunan nəticələrin təhlili və qiymətləndirilməsini nəzərdə tutur. Bu funksiya müxtəlif bölgələrdə təhsil sahəsində sağlam rəqabəti və yarış mühiti yaratmağa müəllim və tələbələri, pedaqoji kollektivləri yüksək təhsil nəticələri üçün stimullaşdırmağa xidmət edir.

- proqnostik funksiya – təlim prosesi və onun nəticələrinin gələcək inkişaf meyllərini müəyyənləşdirməyi nəzərdə tutur. Təhsil islahatı şəraitində təhsilin səmərəli idarə olunması və təkmilləşdirilməsi, təhsilin strateji məsələlərinin həlli baxımından bu funksiya böyük əhəmiyyət kəsb edir.

Qeyd edilən funksiyalar kompleks halında həyata keçirildikdə monitorinqin səmərəliliyindən danışmaq olar. Monitirinqin təhsil prosesinin idarə edilməsinin müstəqil funksiyası kimi nəzərdən keçirilməsi şərti xarakter daşıyır. Çünki real təhsil prosesində o, idarəetmənin bütün digər funksiyaları və mərhələləri ilə sıx vəhdət halında özünü göstərir: idarəetmənin hər bir funksiyası monitorinqin mühüm tərkib hissəsi, əsas həlqəsi kimi çıxış edir.

DOI:10.30546/gdu.3.2024

***Ədəbiyyat***

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // "Xalq" qəz., – 2013, – 25 oktyabr
2. Paşayev, Ə.X. Pedaqogika (Yeni kurs). Dərs vəsaiti / Ə.X.Paşayev, F.A.Rüstəmov. – Bakı: Nurlan, – 2007. – 464 s
3. Tusi, Nəsirəddin. Əxlaqi-Nasiri / N.Tusi. – Bakı: Elm, –1989. – 256 s.
4. Гузеев, А.В. Оценочные шкалы в образовательной технологии // Начальная школа, – 2002. N5, – с.115-125
5. Новикова, Т.Г. Оценования с помощью портфолио // Инновационные проекты в образовании, – 2014. N2, – с.6-10
6. Русских, Г.А. Технология обучения // Дополнительное образование, 2004. N12, – с.35-42

## РОЛЬ СИСТЕМЫ МОНИТОРИНГА И ОЦЕНКИ В ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ В ПОВЫШЕНИИ КАЧЕСТВА ОБРАЗОВАНИЯ

***Вердиева Айгюн Бакихан кызы***

***Резюме***

В данной статье рассматривается роль систем мониторинга и оценки в высших учебных заведениях в повышении качества образования. Подчеркивается важность процессов мониторинга и оценки в развитии образовательных учреждений и повышении качества обучения. В статье отмечается, что построение эффективных оценочных систем приведет к объективному измерению знаний и умений учащихся, выявлению пробелов, существующих в учебном процессе, и их устранению. Кроме того, внедрение подходов к мониторингу, отвечающих современным образовательным стандартам, и постоянное совершенствование этих систем создают условия для устойчивого повышения качества образования. В основе статьи-опыт и примеры того, как использование этих систем в высших учебных заведениях повышает эффективность обучения.

## THE ROLE OF THE MONITORING AND EVALUATION SYSTEM IN HIGHER EDUCATION INSTITUTIONS IN IMPROVING THE QUALITY OF EDUCATION

***Verdiyeva Aygun Bakikhan gizi***

***Summary***

This article examines the role of monitoring and evaluation systems in improving the quality of education in higher education institutions. The importance of monitoring and evaluation processes in the development of educational institutions and improving the quality of teaching is emphasized. The article notes that the construction of effective assessment systems will result in an objective measurement of students ' knowledge and skills, the detection of gaps existing in the educational process and their elimination. Also, the application of monitoring approaches that meet modern educational standards and the continuous improvement of these systems contribute to the continuous improvement of the quality of Education. The article is based on experiences and examples of how the use of these systems in higher education institutions improves teaching efficiency.

***Rəyçi: Pedaqogika üzrə fəlsəfə doktoru Süleymanova Afət***
***Daxil olma tarixi 03 sentyabr 2024-cü il***